Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Gözəllik və həqiqət şairi

***(Molla Pənah Vaqifin 300-illik yubileyi münasibəti ilə hazırlanmış metodik vəsait)***

**Bakı – 2016**

Tərtibçi: **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

Redaktor və
buraxılışa məsul: **Zahirə Dadaşova**

**Gözəllik və həqiqət şairi** M.P.Vaqifin 300-illik yubileyi münasibəti ilə hazırlanmış metodik vəsait . F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 27s.

## Tərtibçidən

Hanı Molla Pənah, bivəfa cahan,
Təxəllüsü Vaqif, nəzmi dürr-əfşan,
İndi eyləmisən xak ilə yeksan,
Tapmaq olmaz kamalda can hanı?
(*Aşıq Valeh)*

2016-2017-ci illərdə YUNESKO-nun yubileylər proqramı çərçivəsində təşkilatın baş qərargahında Azərbaycanın görkəmli şəxsiyyətlərinin və əlamətdar hadisələrin yubileylərinin qeyd edilməsinə dair təklifləri qəbul olunub. Qeyd etmək lazımdır ki, YUNESKO-nun Yubileylər proqramına təqdim edilən şəxsiyyətlər və hadisələr təsadüfi seçilmir. Belə ki, Molla Pənah Vaqifin 300 illik yubileyinin beynəlxalq səviyyədə qeyd edilməsi ilə M.P.Vaqifin yaşayıb yaratdığı Qarabağ xanlığının tarixinin canlandırılması nəzərdə tutulur. Böyük şairimiz Molla Pənah Vaqifi mən lap uşaq çağlarımdan sevirəm. Kənd toylarında, məclislərdə çıxış edən aşıqlar tez-tez onun adını çəkir, onun qoşmalarını oxuyurlar. Biz onların oxuduqları sadə Vaqif misralarını çox asanlıqla əzbərləyirik...Vaqif kimdir? Bu sual ilk baxışda bəzilərinə qəribə görünə bilər. “Necə yəni Vaqif kimdir?” Vaqif şairdir. Hətta əlavə edib deyə bilərlər ki, böyük şairdir, dahi şairdir. Bunu mən də bilirəm, ancaq yenə də soruşuram: Vaqif kimdir? Böyüklük, dahilik Vaqifi heç də başqa böyük, dahi şairlərdən fərqləndirmir. Mənə elə gəlir ki, Vaqif haqqında nəsə daha ülvü bir söz demək lazımdır. Mən şəxsən özüm o sözü yaza bilmirəm. Bəlkə də o söz ürək üçün yaranıb. Dil onu deməkdə acizdir. Vaqif əfsanəyə dönmüş, babaların hikmətinə, nənələrin nağıllarına, anaların laylasına, cavanların məhəbbətinə qayıtmış bir şairdir. Mən Molla Pənah sözünü eşidəndə heç Vaqifi tanımırdım. Uşaqlı-böyüklü hamı

"Hər oxuyan Molla Pənah olmaz" deyirdi. Molla Pənah Vaqif əsl xalq şairi olmuşdur. Xalq şairi isə xalqın ən sədaqətli oğlu olmaq deməkdir. Vaqif xalqın ruhunu, dilini, arzu və istəyini, zövqünü, gözəlliyini dərindən-dərinə öyrəndikdən sonra hər şairin girişə bilmədiyi Şərq poeziyası göylərinə Azərbaycan şeiri bayrağını ucadan-uca qaldırmış, bununla da ədəbiyyatımızda realizm yolunu açmış bir şairdir. Onun ürəyi ilə xalqın ürəyi bir vurmuşdur demək azdır, çünki Vaqifin ürəyi bu gün də vurur. Onun ürəyi şeirlərindədir. Bu şeirlər ölməzdir.

Vaqifin saz çalıb çalmamağından xəbərsizəm. Ancaq cəsarətlə onu deyə bilərəm ki, Vaqif bəstəkar olmuşdur. Bu cəsarəti mənə onun şeirləri vermişdir. Vaqif qoşmalarını oxuyarkən görürük ki, o, sadəcə olaraq şeir yazmamış, Azərbaycan sözlərinin musiqisini kəşf etmişdir. Vaqif Azərbaycan sözlərini nota düzmüşdür. Onun hər qoşması, hər müxəmməsi, hər qəzəli bir mahnıdır. Vaqif şeirlərini oxuyarkən inana bilmirsən ki, bu o qədər insan təsvirini bir adam verə bilsin. Bu şeirləri sanki bütün xalq yazıb-yaratmışdır. Bəli, bütün xalqın estetik zövqünün ifaçısı olmuşdur. Ona görə də Vaqifin şeirləri sənə doğmadır.Vaqif şeirlərinin kimliyi bununla tamamlanmır. Vaqif tükənməz xəzinədir. Bu xəzinənin hər birinin içərisinə Azərbaycan xalqının adı yazılmışdır. Ona görə də Vaqifin inciləri yer üzərindəki bütün söz incilərindən öz Vaqifliyi ilə seçilir.

Vaqif dili mənalı və çox anlaşıqlıdır. Onun sözü, ifadə və cümlələri sadə olduğu qədər təbii və şirindir. Dildə təbiilik və şirinlik isə xəlqiliyin mühüm şərtidir. Böyük istedadımız Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatının iftixarlarındandır. Onun şeirləri təkraredilməzdir. M.P.Vaqif bədii irsi dərin xəzinədir. Lakin, bu xəzinədə hələ üzə çıxarılmamış incilər çoxdur. Vaqif şeirləri hər kəsi

məftun edir.Vaqifin vəsv etdiyi məhəbbətdə üç mühüm cəhət-gözəllik-vəfa-ağıl birləşir və bir-birini tamamlayır.

Tərtib olunan bu vəsait iki bölmədən ibarətdir. Birinci bölmədə şairin həyat və yaradıcılığı, ikinci bölmədə isə keçiriləcək yubiley tədbirlərindən bəhs olunur. Təqdim etdiyimiz bu vəsaitlə uşaqların intellektual səviyyələrinin artmasında böyük rol oynayan kitabxanaçıları oxucu cəlbində müasir tədbir istifadə etməklə maarifləndirmək istəyirik.

Vəsaitdən mərkəzi kitabxanaların uşaq şöbələri və filialları, məktəb, kollec kitabxanaçıları, həmçinin uşaqların mütaliəsinə rəhbərlik edənlər istifadə edə bilərlər.

## I bölmə: Həyat və yaradıcılığı haqqında

Molla Pənah Vaqif 1717-ci ildə Qazax mahalının Qıraq Salahlı kəndində anadan olmuşdur. Atası Mehdi ağa nüfuzlu adam idi. Müəllimlərindən biri də Şəfi əfəndi olmuşdur.

Adı Pənah, təxəllüsü Vaqifdir. Hörmətli şəxs olduğu üçün Molla adlandırılmışdır. Mollaxana təhsilini bitirdikdən sonra Vaqif həm müəllimlik etmiş, həm də aşıq şeiri üslubunda «Vaqif» təxəllüsü ilə şeirlər yazmışdır.

XVIII əsr Gürcüstan sərhəddindəki münaqişələr bir sıra ailələr kimi, onun da ailəsinin oradan köçməsini zəruri edir. Onlar əvvəl Gəncəyə, sonra Qarabağa, oradan da xanlığın mərkəzi olan Şuşa şəhərinə köçürlər. İbrahim xan Vaqifi saraya dəvət edir, onu əvvəl eşikağası, sonra isə baş vəzir təyin edir. Vaqif saraya düşdükdən sonra birinci vəzir olduqdan sonra xanlığın xarici siyasətinə rəhbərlik edib. O vaxt Azərbaycanda vəziyyət çox gərgin və mürəkkəb idi. 1747-ci ildə Nadir şahın öldürülməsindən sonra, bəlkə hələ bir az da əvvəl Azərbaycanda müstəqil xanlıqlar yaranmışdı. Az bir müddət ərzində

Şəki, Qarabağ, Gəncə, Quba kimi Azərbaycan xanlıqları beynəlxalq miqyasda tanınmağa başlayırlar.

Vaqif Vidadi, Hüseyn xan Müştaq, Ağqız oğlu Piri kimi şairlərlə dostluq etmişdir. Onun ən yaxın dostu isə heç şübhəsiz, həmyerlisi və bəzi mənbələrə əsasən, uzaq qohumu Vidadi olub. Vaqif öz qızlarını Vidadinin oğlanlarına ərə vermişdir. Onların müşairəsi (şerləşməsi) hər iki şairin yaradıcılığında mühüm yer tutur. Vaqifin Molla Vidadi ilə məşhur «Ağlarsan» adlı deyişməsi var. Vaqif nikbin, Vidadi isə bədbin insan idi.

Gürcüstan və Rusiya ilə Qarabağ xanlığının siyasi münasibətinin yaxşılaşdırmaq məqsədi ilə Tiflisə səfərə getmişdir. İranın siyasi, hərbi təzyiqlərinə qarşı fəal müqavimət göstərmişdir.

1795-ci ildə Ağa Məhəmməd şah Qacarın İbrahim xana göndərdiyi «Fələyin mancanağından fitnə daşları yağır, sən isə əbləhcəsinə şüşə içərisində oturmusan»- məktubuna Vaqif belə cavab yazır: «Əgər məni qoruyan mənim tanrımdırsa, şüşəni daş içərisində də salamat saxlar».

Qacar bundan qəzəblənib Şuşaya hücum edir, qalanı 33 gün mühasirədə saxlayır. Amma ala bilmir. Qacar 1797-ci ildə Qarabağ xanlığını cəzalandırmaq üçün yenidən Qarabağa hücum edir. İbrahim xan Balakənə qaynının yanına qaçır, Vaqif isə Şuşada qalır. Şair həbs edilərək zindana salınır. Lakin Qacar öldürülür, İran qoşunu geri çəkilir. Vaqif həbsdən azad edilir. Məhəmməd bəy Cavanşir hakimiyyəti ələ alır.

1797-ci ildə Vaqifi oğlu Əli bəylə birlikdə edam etdirir. Vaqifin evi talanır, əlyazmaları itir.

## II bölmə: Yubiley tədbirlərinin keçirilməsi

Vaqif şərq poeziyasının bütün klassik formalarından istifadə edib. O, qəzəl, təcnis, müxəmməs, müstəzad, müəşşərə, müşairə, məsnəvi və mərsiyələr yazıb. Ancaq onun yaradıcılığının böyük bir qismi, aşıq poeziyasından götürülmüş qoşma növündə yazılmış şerlər təşkil edir. Həmin şerlərin dili xalqın canlı danışığına çox yaxındır. Vaqif ərəb və fars mənşəli sözlərdən bacardıqca az istifadə etmişdir.

2016-cı ildə YUNESKO-nun xətti ilə Azərbaycan klassik ədəbiyyatının iki görkəmli nümayəndəsi – İmadəddin Nəsimi və Molla Pənah Vaqif ili elan edilmişdir. YUNESKO-nun xətti ilə hər iki qüdrətli şairin anılması Azərbaycan üçün dəyərli hadisə olacaqdır.

Dahi şairimiz Molla PənahVaqifin anadan olmasının 300 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər, kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə keçirilə bilər. Şairi sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada ilk növbədə müxtəlif başlıqlar altında kitab sərgisi təşkil olunmalıdır. Bunlardan “Fikirlərim nur qətrəli, bir az Qazax, Bir az Şuşa, bir az Vaqif xatirəli”, “Vaqif-300”, “Vaqif müasirimizdir”, “Gözəlliyi tərənnüm edən şair”, “Dilin qüdrəti-Vaqifin dili”, “Əsərlərdə yaşayan ömür”, “Var şirin sözü Vaqifin”, “Hər oxuyan Molla Pənah olmur”, “Vaqif sevirdi, Vaqif sevilir”, ”Vaqif, yad et, səni yad eyləyəni”, “Söz sərrafı Vaqif”, “Həyat aşiqi-Molla Pənah”.
















Şairin iri və kiçik əsərlərindən ibarət kitabları, ədiblərimizin şair haqqında yazılan kitabları və dövrü mətbuatda dərc olunan yazı materialları sərgidə nümayiş oluna bilər. Bundan başqa sərgidə şairin ayrı-ayrı rəssamlar tərəfindən çəkilən müxtəlif rəsmləri də yerləşdirilə bilər ki, bu da sərgini daha dolğun və maraqlı edər. Sərgidə dahilərin şair haqqında söylədikləri sitatlar və şeir parçaları da yer alır.

**Görkəmli şəxslərin M.P.Vaqif haqqında söylədikləri:**

1.XVII-XVIII əsrlərdə, xüsusən M.V.Vidadi-M.P.Vaqif xətti ilə qoşmanın ədəbi-bədi təfəkkürün ifadə-janr normasına çevrilməsi həm məzmun, həm də ifadə planında milli mədəniyyətin təşəkkülü prosesinin təzahürüdür.

*Professor Nizami Cəfərov*

2.Vaqif yaradıcılığı ilə Azərbaycan şeiri tarixində yeni dövr başlanır.

*Akademik Həmid Araslı*

3.Vaqif təkcə böyük şair deyildi, o həm də görkəmli siyasi xadim və diplomat idi; xalq arasında da müdrik bir ağsaqqal kimi məşhurlaşmışdı.

*Xalq şairi S.Vurğun*

4. Vaqif istedadlı şair, eyni zamanda içtimai dövlət xadimi idi.

*Xalq yazıçısı İsmayıl Şıxlı*

5.Vaqif şeirinin dili təbii və sadə olduğu qədər mənalı və dolğundur.

*Xalq yazıçı Mirzə İbrahimov*

6. Sadə Azərbaycan sözləri ilə camaatımızın qana biləcəyi bir şəkildə şeir yaratmaq üçün Vaqifin üslubundan asan və əlverişli bir üslub yoxdur. Odur ki, həmin üslub Vaqifdən sonra şairlərimiz üçün bir qəlib şəklinə girmişdir.

*Yazıçı M.S.Ordubadi*

7.Yeni Azərbaycan şeirinin yaradıcısı, misilsiz qoşma və qəzəllər ustası Molla Pənah Vaqifin poeziyası son dərəcə zəngin və cazibədardır.

*Ədəbiyyatşünas, alim M. Rəfili*

8.Vaqifi poeziyanın qüdrətli, əvəzsiz yaradıcısı kimi tanıtmaq lazımdır.

*Yazıçı Məsud Əlioğlu*

9.Vaqif bütün varlığı, ilhamı ilə həyata, insan gözəlliyinə vurğun, həyat aşiqli bir sənətkardır.

*Professor Mirzəağa Quluzadə*

10.Vaqif öz şeirləri ilə Azərbaycanı tərənnüm edir, Azərbaycan isə onu yaşadır. Bu, nəsilbənəsil xalq arasında yaşayan sənətkar üçün böyük səadətdir.

*Avar şairi Rəsul Həmzətov*

11.Vaqif sadə dilli, zəngin məzmunlu şeir toxumunu münbit bir poeziya torpağına səpmişdir.

*Türk alimi Əhməd Cəfəroğlu*

12.Yüksək insani hislər aşılayan, coşğun və nikbin Vaqif poeziyası bu gün də bizimlədir.

*Filoloji elmlər namizədi Araz Dadaşzadə*

13. Onun şeir və qəzəliyyatı bizim Azərbaycan turklərinə ziyadə xoş gəlir və hər nə onun qələmindən zuhura gəlibsə... tamamisi urəkdən və həqiqi həyatdan nəşət edən əsərlərdir. Milli şairlərimizdən onun kimi sadə və acıq lisanda və ana dilimizin şivəsində şeir və qəzəl yazan az olub.

*Firidun bəy Köçərli*

Şairin həyat və yaradıcılığını oxuculara tanıtmaq məqsədilə bir sıra tədbirlər keçirmək olar. Tədbirlərin məqsədi uşaqlara mütailəni sevdirmək, oxu vərdişi aşılamaq və məktəbliləri kitabxanaya cəlb etmək məqsədi daşıyır. M. P. Vaqif yaradıcılığını şagirdlərə tanıtmaq üçün **“Xumar-xumar baxmaq göz qaydasıdır”** başlığı ilə şairin təbiəti və gözəlləri vəsf edən, onların tərənnümünə həsr edilən tədbir keçirilə bilər. Ilk öncə kitabxanaçı tədbirdə iştirak edən oxucuları salamlayır və böyük şair M.P.Vaqifin həyat və yaradıcılığı haqqında məlumat verdikdən sonra, söhbətinə davam edir.Vaqif gözəlliyin mənbəini obyektiv aləmdə görürdü və buna görə də onun üçün gözəllik meyarı təbiət özü idi. Gözəlliyin mənbəyi təbiətdir dedikdə, elə təsəvvür etmək olmaz ki, təbiət özü tam şəkildə gözəllik verir. Vaqif şeirində insan gözəlliyi sanki rəssam fırçası ilə çəkilmişdir. Onun şeirlərini oxuyarkən istər-istəməz XVIII əsrin Azərbaycan gözəlləri öz geyimi, canlı boyaları və real cizgiləri ilə göz qabağına gəlir:

Zər haşiyə al nimtənə üstündə,
Xallar üz yanında, çənə üstündə,
Buxağın altında, sinə üstündə
Zülfün burulması, hayıf ki, yoxdur.

Sonra isə oxucular səhnəyə yaxınlaşıb mövzuya uyğun olaraq şeirlər deməyə başlayır:

**1-ci oxucu:** Bir zaman havada qanad saxlayın,
Sözüm vardır mənim sizə, durnalar!
Qatarlaşıb nə diyardan gəlirsiz?
Bir xəbər versəniz, bizə, durnalar!

**2-ci oxucu:** Qış günü qışlağı Qıraqbasanın,
Gözüdür aranın, cümlə-cahanın,
Belə gözəl yerin, gözəl məkanın
Bir gözəl obası hayıf ki, yoxdur...

**3-cü oxucu:** Ala gözlü, sərv boylu dilbərim,
Həsrətin çəkdiyim canan, bəri bax!
Gecə-gündüz fikrim-zikrim, əzbərim,
Üzüldü taqətim, aman, bəri bax!

**4-cü oxucu:** Qaşların qurulu yay tək çəkilir,
Kipriklərin dəyir, ciyər sökülür.
Danışanda qəndü şəkkər tökülür,
Dilin, dodaqların baldı, sevdiyim!

**Kitabxanaçı:** Gözəl şeir oz təravətini heç bir zaman itirmir. Əsrlər keçir, nəsillər bir-birini əvəz edir, əsl sənət əsəri olan şeirlər həmişə dodaqlarda səslənir, ürəklərə təsir edir, dillərdə əzbər olaraq yaşayır. Belə şeirlərin tərif və təbliğə ehtiyacı yoxdur. Onlar çap olunmasalar da, öz ömürlərini ecazkar bir qüdrətlə uzaqlaşdırırlar. Əsrlərin imtahanlarından çıxıb unudulmayan belə əsərlər klassik irsimizin ən gözəl nümunələridir. Molla Pənah Vaqif də öz təravətini əsrlərcə yaşadan klassik şeirimizin ölməz nümunələrini yaratmış sənətkarlardan biridir. Vaqif yüksək zövq, incə hisslər, dərin və nikbin duyğular şairidir. Onun yaradıcılığında məhəbbət lirikası əsas yer tutur. Onun qələmə aldığı gözəllər bütün xarici məlahəti və daxili zənginliyi ilə təsvir edilib. Vaqifin şeir dili ilə Vətənin-Azərbaycanın təbiəti, xalq məişəti və adətlərinin real mənzərəsi, azəri gözəllərinin təbii-mənəvi aləmi tam milli xüsusiyyətləri, zəngin koloriti ilə təsvir olunmuşdur. Vaqif lirik şairdir. Məzmunca zəngin, formaca rəngarəng yaradıcılığa malik olan şairin lirikası iki xətt üzrə inkişaf etmişdir. O, həm də klassik şeir üslubunda (qəzəl, müstəzad, müxəmməs,və s.) şeirlər yazmışdır. Vaqif qoşmalarının mühüm

hissəsini gözəlliyin təsvirinə həsr etmişdir. Bu əsərlərdə təsvir olunan “sərv qədli”, “mina boylu”, “zülfi ənbər” gözəllər, eyni zamanda yerişi, gözəl duruşu, gözəl rəftar və danışığı ilə də şairin ruhunu oxşayan real insanlardır.

Oturuşun gözəl, duruşun gözəl,
Sallanışın gözəl, yerişin gözəl,
Xoyun, xülqün gözəl, hər işin gözəl,
Bəxş olub bu xubluq xudadan sənə.

Xarici gözəlliyin təsviri şairin şeirlərində əsas yer tutur. İnsan gözəlliyindən bəhs edən Vaqif sadə, həyati təşbihlər vasitəsilə təsvir etdiyi gözəli oxucunun gözü qarşısında məharətlə canlandıra bilir. Vaqifin gözəlin portretini yaratmasını şairin şeirində belə müşahidə edirik.

Zülflərin sünbüldür, yanağın lalə,
Baxışı tən edir vəhşi qəzalə,
Gözləri məstanə, ağzı piyalə
Gərdəni minadır mənim sevdiyim.

Vaqif gözəllikdən danışarkən təkcə zahiri keyfiyyətlərlə kifayətlənmir. Şair gözəlliyin əsl mənasını forma ilə məzmun vəhdətində, birliyində axtarır. Insanın hüsnü, zahiri görkəmi ilə yanaşı əxlaqi, rəftarı, kamalı da gözəl olmalıdır. Şair qadınları mənəvi cəhətdən gözəl, həyalı, abırlı, incə zövqə malik insanlar kimi görmək istəyir. Vaqifin yaradıcılığında vəfa, namus, etibar, sədaqət, səmimiyyət kimi mənəvi keyfiyyətlər gözəlliyin əsası, tərkib hissəsidir. Onun görmək istədiyi gözəlin ən azı aşağıdakı əqli, mənəvi xüsusiyyətləri olmalıdır:

Öyünməsin kimsə, gözələm deyib,
Ayrı təhər olur, halı gözəlin.

Günəş üzlü, şirin gözlü, xoşqılıq
Ləblərindən axır balı gözəlin.

Yanağı gül, zülfü yasəmən gərək,
Dişləri inci, sinəsi gen gərək,
Haldan xəbər verən, dərdbilən gərək,
Heç olmaya məkrü alı gözəlin.

Vaqifin dili olduqca sadə, ahəngdardır. Şeir dilimizin saflığı onun adı ilə möhkəm bağlıdır. Vaqifi çoban da, alim də, qoca da, cavan da yaxşı başa düşür**.** Bahar səhərlərində günəşin gün işığı nə qədər yaxıcı və parlaqsa,Vaqifin dili də bir o qədər hərarətli, sadə və aydındır.Vaqif sadəliyinin primitilivliklə heç bir əlaqəsi yoxdur. Əksinə, bu sadəlik məna dolğunluğunu, fikirləri təbii, bədii təsir qüvvəsinə malik bir şəkildə əks etdirir.

M.P.Vaqifi böyükdən-kiçiyə hamı sevir, oxuyur. Hər kəs onun əsərlərində təbiəti və təbiət gözəlliklərini bir daha sevir. Məktəblərdə yuxarı sinif şagirdləri ilə bərabər, kiçik yaşlı şagirdlər də onun əsərlərini oxuyur. Kiçik və orta yaş qrup oxuculara Vaqif yaradıcılığını daha dərindən tanıtmaq və sevdirmək üçün kitabxanada səhərciklər hazırlana bilər. Bunun üçün kitabxanaçı kiçik yaşlı oxucuları şairin kitabları ilə tanış edir. Şagirdlər Vaqifin bir çox şeirlərini oxuyur, əsərləri ilə tanış olurlar. Kitabxanada şairlə bağlı maraqlı tədbir forması kimi ***"Nağıl geçəsi"*** də keçirə bilər. Təyin olunmuş gün oxucular kitabxanaya dəvət olunur, səhnə nağıla uyğun dekorasiyalarla bəzədilir. İştirakçılar nağıl qəhrəmanları kimi geyinir. İlk öncə kitabxanaçı səhnəyə gəlir, qonaqları və iştirakçıları salamlayaraq M.P.Vaqif yaradıcılığı haqqında qısa məlumat verir.

***Kitabxanaçı***: Xalq üçün yaradan böyük sənətkarlar heç vaxt ölmürlər. Xalq onların haqqında müxtəlif rəvayətlər, əfsanələr düzəldir, onları mahnılarda, dastanlarda yaşadır. Belə sənətkarlardan biri də böyük şairimiz Molla Pənah Vaqifdir. Vaqif haqqında rəvayətlərdə Vaqif şair olmaqdan başqa böyük bir alim, Dədə Qorqud müdrikliyinə malik bir el ağsaqqalı kimi canlandırılır. Bu materiallar içərisində şairin həyatının nağılvari tarixçəsi olan "Vaqifin nağılları" xüsusilə diqqəti cəlb edir. Nağıl 1930-cu illərdə Aşıq Hüseyn Seyfəlinin dilindən yazıya alınmışdır. Aşıq hadisələri çox sadə şəkildə, yerli şivəyə, ifadələrə uyğun olaraq söyləmişdir. 33 səhifəlik bu kiçik nağılda istifadə olunan qoşmalar Vaqifin əlyazmalarında və çap edilmiş kitablarında olan qoşmalardan fərqlidir. Bunlarda misralar, sözlər, necə deyərlər, el variantında söylənmişdir. Məsələn, şairin Qarabağa gəlməsi belə təsvir olunur:

**Aparıcı:** Molla Pənah Vaqif İbrahim xanın yanına gəlib dağ yurdu istədi. Qayıdıb İbrahim xan bundan soruşdu:

**İbrahim xan:** Sən özün hara adamısan?

**M.P.Vaqif:** Qazaxdanam, on evnən köç eyləyib gəlmişik, burda qalmaq istəyirik.

**İbrahim xan:** Balam Qazax özü bir yaxşı yerdi, səbəb nə olub ki, siz oradan köçmüsünüz?

**Molla Pənah Vaqif:** Mən şairəm, dili duzluluğumun üstündə Vəli xannan düşmüşəm.

**İbrahim xan:** A kişi, yazıx olubsan, yağışdan qurtarıb, yağmura düşübsən. Vəli xan mənim dostumdur. İndi səni tutaram, göndərərəm Vəli xanın sərəncamına.

**Molla Pənah Vaqif dedi:** Mənim sənin qapına gəlmək borcum idi, istəyirsənsən özün başımı kəs.

**Aparıcı:** İbrahim xan fikirləşdi ki, doğrudan da bir misal var ki, qılıncı qapısında kəsər.
**İbrahim xan:** Nə vaxt bu Molla Vaqifi incitsəm, bunnan mənə bir əskiklikdən başqa bir artıqlıq yoxdur. A kişi, sən mənim sözümü kəsdin, indi sən ki, şairsən səndən bir söz istəyirəm. Nə vaxt o sözü mənə şair dili ilə desən, o vaxt sənə dağ yurdu da, aran yurdu da verərəm.
**Vaqif:** Nə söz istəyirsən buyura bilərsən.
**İbrahim xan:** Bir oğlana toy eləyirlər, nişanlısını götürüb qoyurlar otağa, o zaman o oğlanın onun yanına nə mərifətnən getməsini şeirnən de.
**Aparıcı:** Vaqif ğötürüb saznan cavab verir:
**M.P.Vaqif:** Bir tubu boylunun, səlbi cananın
Gərək qulluğuna yetəsən dürüst.
Tər hənalı əlin, nazik barmağın
Yetişcək dəstindən tutasan dürüst.

Şairin 300 illik yubileyi münasibəti ilə keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. **"İxtilatın şirin, sözün məzəli"** adlı gecəyə qonaqlar dəvət edilir. Görüşdə qonaqlar çıxış edərək Vaqif sənətinin əzəmət və gözəlliyindən danışırlar. Gecəyə başlamazdan əvvəl şairin xatirəsinə həsr olunmuş "**M.P.Vaqif təsviri sənətdə**" adlı carxlı video slaydla rəsm sərgisinə virtual səyahət edilir. Virtual sərgidə şairin Azərbaycanın görkəmli rəssamları tərəfindən fırçaya aldığı rəsm əsərləri tədbir iştirakçıları tərəfindən izlənilir. Kitabxanaçı sərgi haqqında səhnədən məlumat verir.
**Kitabxanaçı:** Klassik söz sənətkarlarımızın əsərləri kimi özlərinin də surəti fırça ustalarımız üçün həmişə ilham mənbəyi olmuşdur.

Xalqımızın ölməz şairi Molla PənahVaqifin obrazı gördüyünüz bu cür çalarla yaradılmışdır. Xalq rəssamı M. Abdullayevə görə Vaqif öz boyaları ilə birgə gözəllik, nəciblik duyğuları ilə yaşayan şair, həmçinin xalqın milli qürurunu özündə yaşadan siyasi dövlət xadimidir. Azərbaycanın xalq rəssamı T.Tağıyev isə ölməz Vaqifi elimizin-obamızın təbii şairi və hardasa öz gözəllik duyğularında üzünün cizgiləri, boyaları da avazıyıb aydınlaşan sadə təbiətli bir gənc kimi görmüşdür. Respublikanın əməkdar incəsət xadimi S.Şərifzadəyə görə Vaqif məğrurdu, əyilməzdi; bütün bunlarla bərabər, öz daxili aləmindən də ayrıla bilməyən vətəndaş bir şairdir. Əməkdar incəsənət xadimi Nəcəfquluzadə isə Vaqifi ucsuz-bucaqsız vətən torpağından ilham alan, onun gözəlliyi ilə yaşayan böyük sənətkar kimi təsvir eləyir. Bu da maraqlıdır ki, fırça ustalarımız həmişə şairi gənc, nəciblik, incəlik və gözəllik duyğuları ilə yaşayan sənətkar kimi təsvir etmişlər. Bu, heç şübhəsiz ki, şairin özünün əsərlərindəki gənclik, kövrək duyğularından irəli gəlmişdir. 300 illik uzun bir ömür yaşayan Molla Pənah Vaqif söz yox ki, min illər keçdikdən sonra da beləcə duyulacaqdır.

*Daha sonra ədəbi-bədii gecə "**Heyran olmuşam**"adlı musiqili verilişə keçid alır.*

**I Aparıcı**: Vaqif poeziyasına professional bəstəkarlarımız müraciət etməzdən əvvəl, onun qəzəl və qoşmaları muğamlarımızın, təsniflərimizin, xalq mahnılarımızın mətni kimi könülləri oxşamışdır. Bu ənənənə indi də davam etdirilməkdədir. Vaqif şeiriyyətinə dərindən vaqif olan böyük müğənnimiz Bülbülün şairin sözləri ilə oxuduğu bir sıra xalq mahnılarımız ona bəslənilən ümumxalq məhəbbətinin təzahürüdür. Şairin lirik şeirlərinin ruhunu Fikrət

Əmirov orkestr üçün bəstələdiyi ecazkar “Vaqifi” pyesində olduqca gözəl ifadə edə bilmişdir.

**II Aparıcı:** Cahangir Cahangirovun “Durnalar”, Əşrəf Abbasovun “Heyran olmuşam”, Qənbər Hüseynlinin “Sonalar kimi”, Ramiz Mustafayevin “Vaqif” operasından “Vaqifin ariyası” kimi bəstələdiyi “Görmədim” və başqa müəlliflərin vokal əsərləri bəstəkarlıq yaradıcılığının ilhamlı bəhrələridir.

*(Rəşid Behbudovun ifasında“Heyran olmuşam” mahnı-romansı səslənir* )

**I Aparıcı:** “Heyran olmuşam” mahnı-romansı Azərbaycan vokal ədəbiyyatında Vaqifin şeirlərinə mahnı-romans formasında bəstələnmiş ilk nümunə idi. Rəşid Behbudovun ifasında həmin mahnı-romans Vaqif şeriyyətinin bütün gözəlliyini dolğunluğu ilə çatdırırdı. “Heyran olmuşam” mahnı-romansı səslənən kimi geniş yayıldı və həmişə eyni rəğbətlə qarşılandı. Bu mahnı-romans bütövlükdə Vaqif yaradıcılığına heyranlığımızın ifadəsidir.

**II Aparıcı:** Azərbaycan milli mədəniyyətini min bir ulduzlu göyə bənzətmək olar. Bu sönməz ulduzların arasında ən gur işıq saçanların, öz şəkli, öz adı və öz səmti olanlardan biri də Vaqifdir. Vaqif bizə xalqın ürəyindən axıb gəlmişdir. Onun həmişəcavan poeziyası şeir aşiqlərinin qəlbində, dilində üç əsr ömr sürüb, damcı-damcı bir yerə toplanıb və bugün bizim gördüyümüz ümmanı yaradıbdır.

**II Aparıcı:** M.P.Vaqif hərcəhətli fəaliyyəti ilə xalqın həyat tərzində, məişətində, adət və ənənəsində yenilik, gözəllik axtarırdı.O, həyatın irəli sürdüyü bir sıra mütərəqqi məsələləri,-qadın azadlığı, başqa xalqlarla dostluq əlaqəsi yaratmaq, maarifləndirmək, dünyəvi elmlərə yiyələnmək, məişətdə yüksək əxlaqi ənənələri qiymətləndirmək kimi məsələləri çalışırdı ki, zəhmətkeşlərin xeyrinə həsr etsin. Şair xalqın

ehtiyaclarına, qüssəsinə və kədərinə bələd idi, onun dərdinə ürəkdən yanırdı. Bu dövrun məhsulu olan əsərlərində şairin maddi və mənəvi sıxıntıları da öz əksini tapmışdır. Bu cəhətdən "Bayram oldu" qoşmasını misal gostərmək olar.

*(Səhnəyə oxucu gəlir və "Bayram oldu" qoşmasını söyləyir)*

**I Aparıcı:** Məlumdur ki, Vaqif dövrundə Azərbaycan bir sıra xanlıqlara ayrılırdı. Vaqif bacarıqlı bir dovlət xadimi kimi bu parcalanmanın olkənin mədəni-iqtisadi inkişafına ciddi maneə olduğunu anlayır və var qüvvəsi ilə xanlıqları birləşdirməyə can atırdı. Lakin bu mumkun olmadığı şəraitdə olkənin təhlukəsizliyini təmin etmək ucun şair Rusiya ilə olan əlaqələri daha da möhkəmlətməyə başlayır. Bu zaman Irandan Ağa Məhəmməd şah Qacar tərəfindən gözlənilən təhlukəni hiss edən Vaqif olkəni mudafiəyə hazırlaşır, bu məqsədlə qonşu dovlətlərlə ittifaq bağlayır, Rusiya ilə siyasi əlaqələri mohkəmləndirirdi. Məhz Vaqifin belə bir siyasi fəaliyyəti nəticəsi olaraq Qarabağ xanlığı Şuşa qalasını Qacarın hücumundan mudafiə edib qoruya bilir. Lakin Qarabağ xanlığı Qacarın ikinci hücumunu dəf etməyə muvəffəq ola bilmir. Buna həm Rusiya ordularının uzaqlaşması, həm də olkədə baş verən fəlakət imkan vermir. 1797-ci ildə Şuşa qalasını işğal edən Qacar Vaqifi də zindana saldırır. Lakin Vaqif, Qacarın öldürulməsi ilə əlaqədar olaraq həbsdən qurtarır. Bu munasibətlə yazılan "Ey Vidadi, gərdişi-dövrani-kəcrəftarə bax" misrası ilə başlayan qəzəlində şair həmin məsələyə toxunmuşdur.

*(Səhnədə digər oxucu "Ey Vidadi, gərdişi-dövrani-kəcrəftarə bax" qoşmasını söyləyir)*

**II Aparıcı:** Şifahi xalq şeirindən gələn və Vaqifin yaradıcılığında yuksək bir zirvəyə qalxan həyatsevərlik XVIII əsr Azərbaycan poeziyasının ən büyük nailiyyəti və üstünlüyüdür. Vaqif şeir dilimizi ərəb, fars tərkiblərindən, muəmmalı ifadələrindən təmizləyərək canlı

xalq dilinin obrazlı ifadələrindən istifadə etmək yolu ilə sadələşdirmiş və zənginləşdirmişdir. Vaqifin poeziya dilimizə gətirdiyi yeniliklər bu gunə qədər realist şerimizin inkişafı ucun əsas bir zəmin olmuşdur. Məhz buna gorə də Vaqif şerinin realist istiqamətini gorən M.F.Axundov Vaqif poeziyasındakı realizmə olan belə meyli yuksək qiymətləndirmişdir.

**I Aparıcı:** Vaqif özundən sonra gələn şerimizin inkişafına qüvvətli təsir gostərmişdir. Şairin əldə olan şeir inciləri də onun zəngin yaradıcılığı haqqında geniş danışmaq ucun imkan verir. Vaqif şeirinin büyük həyati qüvvəsini hiss edib ədəbiyyatımızın inkişafına gostərdiyi qüvvətli təsiri yuksək qiymətləndirən Firudin bəy Kocərli həsrətlə yazırdı: "Hərgah Vaqif və Vidadi kimi məşhur şairlər özgə millətlər arasında zuhur etmiş olsaydılar, bişubhə indiyə kimi onların asar və əşari dəfəat ilə capdan cıxıb əbnayi-millət icərisində yayılmışdı. Onların qəbri ustundə nişangah qoyulmuşdu və vəfatlarının əlli və yuz sənəlik yubileyi daha artıq cəlal və təntənə ilə yad olunmuşdu".

Vaqif ölkənin ən ağır günlərində xalqdan ayrılmamış, şeirləri və ağıllı mülahizələri ilə xalqda ruh yüksəkliyi oyatmağa çalışmış, yaşamaq eşqi, həyata bağlılıq tərənnüm etmişdir. "Bax", "Görmədim" və sair kimi içtimai mənalı şeirləri buna misaldır.

**I oxucu:**

Mən cahan mulkundə, mutləq, doğru halət görmədim,
Hər nə gördüm, əyri gördüm, ozgə babət görmədim
Aşinalar ixtilatında sədaqət görmədim,
Biətu iqraru imanu dəyanət görmədim,
Bivəfadan lacərəm təhsili-hacət görmədim

**II Aparıcı:** Vaqif həm dünənin, həm bu günün, həm də sabahın, irəlidə, hələ bizdən sonra gələcək çox-çox əsrlərin şairidir. O, həm bizim ölməz sələfimiz, ən əsası isə həqiqi xalq şairimizdir. Doğma torpağı ucaldan Vaqifin adı əsrlər boyu yaşayacaqdır. Vaqif XVIII əsrdə yazıb yaratmışdır, demək azdır. Çünki Vaqif dedikdə, biz ilk növbədə realizm, xəlqilik haqqında düşünürük.Vaqif gözlərimizdə bir inqilabçı-yenilikçi şair kimi öz doğma torpağına, öz elinə-obasına son dərəcə bağlı bir ustad sənətkar kimi canlanır.

**I Aparıcı**: Şeirimizə ana dilinin şirinliyini, cazibə və gözəlliyini ustalıqla gətirən M.P.Vaqif bu sahədə öz missiyasını ləyaqətlə yerinə yetirən şairlərin öncüllərindən oldu. XVIII əsrə qədər şeirimizdə olan ərəb və fars tərkibli sözlərin, demək olar ki, xeyli hissəsi Vaqifin könül rübabına yaxın düşə bilmədi. Bəlkə də elə bu səbəbdən Vaqifin ölümündən çox sonra onun şeirlərini xalq arasından toplayıb çap etmək mümkün oldu. Vaqif özündən sonra yaranan şeirimizə dərin təsir etmişdir. Ulu öndərin təşəbbüsü ilə ilə 1982-ci ilin qışında mədəniyyət beşiyimiz olan Şuşanın Cıdır düzündə unudulmaz şairimizin məqbərəsinin açılışı oldu.

Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il tarixli sərəncamına uyğun olaraq M.P.Vaqifin əsərləri latın qrafikasında çap olunaraq bütün kitabxanalara verildi.

(*Ekranda Şuşanın görüntüləri verilir. Vaqifin məqbərəsi, ev muzeyi canlanır)*

**II Aparıcı**: Dağların qoynunda, buludların arasında, yüksəkdə, Vaqif xatirəli bir şəhər var. Şairlər oylağı. Şuşa şəhəri.

Bu gün bir nisgil də ovqatımıza qəm notları qatır ki,Vaqifin böyük məhəbbətlə sevdiyi Şuşa erməni daşnaklarının işğalı altında

inildəməkdədir. Cıdır düzündəki yaralı məqbərəsi illərdir öz doğma ziyarətçilərinə həsrət qalıbdır. Amma inanırıq ki,Vaqifin dediyi kimi, bu əhli-zülmlərin söndüyü gün mütləq olacaq. Yağı düşmən M.P.Vaqifin dili ilə desək, Ağa Məhəmməd Şah Qacarın taleyindən ibrət götürəcək.  Qoy könlümüzdən qopub gələn Xan Şuşinskinin havalandırdığı "Qarabağ şikəstəsi" istedadlı gənc müğənni Anar Hüseynin ifasında şairin sözlərinə yazılmış "Durnalar"ın qanadları altında Şuşamıza pərvazlansın.

## ƏSƏRLƏRİ

### Latın qrafikası ilə

Əsərləri : Poeziya - Bakı : Şərq-Qərb, 2004. - 264 s. - (Klassik Azərbaycan Ədəbiyyatı).
XVIII əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsi, heç şübhəsiz, Molla Pənah Vaqifdir. Zamanın qabaqcıl ideyalarının zövqü və əhvali-ruhiyyəsinin ən yaxşı ifadəçisi olan Vaqif şeri ilə ədəbiyyatımızda yeni mərhələ başlayır.

Əsərləri : poeziya / V. Vidadi, P. Vaqif. - Bakı : Çaşıoğlu, 2004. – S.75-311. - (Azərbaycan Ədəbiyyatı).
Bu kitabda Azərbaycanın iki böyük yazıçısı Molla Vəli Vidadi və Molla Pənah Vaqifin qoşmaları, qəzəlləri, müxəmməsləri, müstəzadları, təcnisləri və s. toplanmışdır.

Əsərləri [Elektron resurs] : poeziya / M. V. Vidadi, M. P. Vaqif ; məsl. L. Məmmədova [et al.] ; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Elektron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM). - (Nizami layihəsi).

## Kiril qrafikası ilə

Əsərləri : şeirlər. - Bakı : Azərnəşr, 1968. - 183 s.
Əsərləri. - Bakı : Azərnəşr, 1968. - 280 s.
Əsərləri. - Bakı : Azərnəşr, 1960. - 258 s.
Seçilmiş şeirləri. - Bakı : Maarif, 1978. - 160 s.
Sevmək gərək : lirik şeirlər. - Bakı : Gənclik, 1987. - 125, [3] s. : şək.

## *HAQQINDA*

## Latın qrafikası ilə

### *Kitablar*

Çəmənzəminli Y.V. Molla Pənah Vaqif haqqında // Əsərləri. 3 clddə. III c. – B.: Avrasiya Press., 2005. – S. 320-324

Əlioğlu M. Gözəllik tükənməzdir : Molla Pənah Vaqifin yaradıcılığı haqqında // Darıxan adamlar. 2 clddə. I c. - B. : Təhsil, 2009. - S. 78-84.

Əlioğlu M. Vaqif və Vidadi // Darıxan adamlar. 2 clddə. I c. - B. : Təhsil, 2009. - S. 85-93.

Əlioğlu M. Vaqif sevirdi, Vaqif sevilir : anadan olmasının 250 illiyi münasibətilə // Darıxan adamlar. 2 clddə. I c. - B. : Təhsil, 2009. - S. 310-3319.

Həsənov F. Qacar, İbraim xan və Molla Pənah Vaqif // Müqəddəs

duyğular. - B. : UniPrint, 2011. - S. 213-236.

Molla Pənah Vaqif // Azərbaycan ədəbiyyatı tarixi : 6 clilddə.III cild. - Bakı : Elm, 2009. – s. 650-678.

Mümtaz S. Molla Pənah Vaqif : məqalə // Azərbaycan ədəbiyyatının qaynaqları. - B. : Avrasiya Press, 2006. - S. 31-74.

Mümtaz S. Rudəki və Molla Pənah Vaqif : məqalə // Azərbaycan ədəbiyyatının qaynaqları. - B. : Avrasiya Press, 2006. - S. 276-283.

**Kiril qrafikası ilə**

**Kitablar**

Araslı H. Molla Pənah Vaqif // XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi.- B. : Azərbaycan Universiteti nəşriyyatı, 1956. – S.270-296.

Dadaşzadə A. Molla Pənah Vaqıf : Oçerk. - Bakı : Azərnəşr, 1968. - 36 s.

Dadaşzadə A. Molla Pənah Vaqif : Həyat və yaradıcılığı. - Bakı : Azərb. SSR EA, 1966. - 190 s.

Dadaşzadə A. [Vaqif yaradıcılığı haqqında] // XVIII əsr Azərbaycan lirikası.- B.: Elm, 1980. – S.82...

Əlimirzəyev X. Vaqif poeziyasının lirik qəhrəmanı // Ədəbi qeydlər. – B.: Gənclik, 1975. – S. 3-9.

Əlioğlu M. Vaqif sevirdi, Vaqif sevilir // Məhəbbət və qəhrəmanlıq. – B.: Yazıçı, 1979. – S.95-103.

Mirəhmədov Ə. Vaqif gülür. Vaqif ağlayır // Yazıçılar. Talelər. Əsərlər. – B. : Azərnəşr, 1978. – S.87-96.

Nəcəfova M. Molla Pənah Vaqif : (Qısa tövsiyə ədəbiyyat göstəricisi). - Bakı : 1970. - 31 s.

## *DÖVRİ MƏTBUATDA*

Bayramov A. Molla Pənah Vaqif və "Vaqif " pyesi // Mədəniyyət. – 2016. – 16 mart.

Fərəcov S. Poetik fikrin Vaqifi : XVIII əsr Azərbaycan şairi Molla Pənah Vaqif haqqında // Mədəniyyət. - 2014. - 9 aprel. - № 26. - S. 15.

Fərəcov S. Vaqif, yardan eşit gələn cavabı // Mədəniyyət. - 2015. - 7 oktyabr. - № 77. - S. 14.

Hacıyev T. Molla Pənah Vaqifin söz xəzinəsi // Azərbaycan dili və ədəbiyyat tədrisi. - 2011. - № 1. - S. 6-10.

Xəlilzadə F. Dövründən gileyli şair : Molla Pənah Vaqif - 290 // Azərbaycan. - 2007. - 21 noyabr. - S. 11.

Kamal R. Molla Pənah Vaqif və Səməd Vurğun: felin enerjisi // Ədəbiyyat qəzeti. - 2015. - 13 fevral. - № 9/10. - S. 5.

Kamal R. Molla Pənah Vaqif : Gözün tarixi // Ədəbiyyat qəzeti. - 2015. - 31 oktyabr. - № 56. - S. 12.

Kazımlı K. Müqəddəs məbədgah : Molla Pənah Vaqif və Molla

Vəli Vidadinin xatirə muzeyi // Mədəni həyat. - 2012. - № 11. - S. 59.

Kazımlı K. Vaqif poeziyasının işığında // Mədəni Həyat . - 2014. - № 2. - S. 32.

Kərimli S. M.P. Vaqifin yaradıcılığının şagirdlərə öyrədilməsi // Azərbaycan dili və ədəbiyyatı tədrisi. - 2013. - № 02. - S. 56-58.

Molla Pənah Vaqif (1717 - 1797) // Savalan. - 2012. - 8 - 10 may. - № 31. - S. 2.

Otuz il əvvəl... : Şuşada Molla Pnah Vaqifin abidəsinin açılışından 30 il keçir // Ədəbiyyat qəzeti. - 2012. - 27 yanvar. - № 3. - S. 1-2.

Şuşada Poeziya bayramı // Ədəbiyyat qəzeti. - 2013. - 6 sentyabr. - № 33. - S. 3. - Məqalə ilk dəfə Ədəbiyyat qəzetinin 1982-ci il 6 avqust tarixli nömrəsində dərc olunmuşdur.

## *MOLLA PƏNAH VAQİF OBRAZI BƏDİİ ƏSƏRLƏRDƏ*

Çəmənzəminli Y.V. İki od arasında : roman // Əsərləri. 3 cilddə. II c. – B.: Avrasiya Press, 2005. – S.451-662.

Həsənzadə N. Vaqif : Molla Pənah Vaqifə həsr olunmuş şeir // Ədəbiyyat qəzeti. - 2012. - 27 yanvar. - № 3. - S. 1. - Şeir Şuşada Vaqif abidəsinin açılışı münasibətilə 12 yanvar 1982-ci ildə yazılmışdır

Vurğun S. Vaqif :dram // Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. C.2. - B. : Şərq-Qərb. - S. 8-131.

**Molla Pənah Vaqifin 300 illik yubileyi münasibəti ilə hazırlanmış metodik vəsait**

Kompyuter yığımı
və dizayn: Aynurə Əliyeva

Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;
E-mail: childlibbaku@yahoo.com
URL:www.clb.az

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:
Tirajı:
Pulsuz